# SEYYİDÜŞ-ŞÜHƏDA HƏMZƏ

## (İdeallarla tanışlıq)

**CƏVAD MÜHƏDDİSİ**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...........Seyyidüş-şühəda Həmzə**
**Müəllif:.............................Cəvad Mühəddisi**
**Tərcümə edən:................Məhəmməd Turan**
**Nəşr edən:..................................................Faiz**
**Çap tarixi:.................................................2005**
**Çap növbəsi:.........................................Birinci**
**Tiraj:...........................................................3000**

# MÜQƏDDİMƏ

Kamillik zirvəsinə göz dikmiş insanın ilahi yolla hərəkətdə əzm və iradəsi artır. Fəzilət və hikmət sahibi olan insanlar həmin bu kamillik zirvəsi, kamal qülləsidirlər. Onların həyat tarixçəsi ilahi yolun necə keçilməsi dərsini öyrədir. «İdeallarla tanışlıq» adlı silsilə kitabçalarda şücaətli və səxavətli şəxsiyyətlərin həyatından danışılmışdır. Bu çöhrələrin təs-virində qələm acizdir, məqamlarının vəsfində dil!

Onlar əhdlərinə vəfa etdilər, son nəfəsədək möhkəm dayandılar, al qanları onların sədaqətini sübut etdi. Onlar qəlblərini eşq nuru ilə diriltdilər, iman yolunda can verib, əbədilik qazandılar. Bu insanlar həmişə diridir-lər və Allahın yanında ruzilərdən bəhrələnirlər. Onlar «Allah» deyib, son nəfəsədək öz əqidələrindən dönmədilər və nəhayət, şəhadət camını başlarına çəkdilər. Bu, ilahi yola sədaqətin sübutu idi.

Qandan da rəsmi sənəd varmı?! Hansı imza şəhadətdən mötəbərdir?! Onlar Allahı

axtardılar, qəlblərini ilahi eşqə təslim etdilər. Elə ki, qəlb məhəbbətlə doldu, ruhun hicabı olan cismi aradan götürdülər. Tənləri can oldu, canları isə Allaha fəda!

Bu kitabçalarda iman, cihad, şəhadət, haqpərəstlik ideallarının iftixar və əzəmət dolu həyatlarının təsviri verilsə də, onların haqqı bu işlə ödənmiş sayılmamışdır. Onların ruhlarının ucalığının, imanlarının böyüklüyünün sonadək açıqlandığı iddia olunmur. Çünki bu insanlar bəşəri kamilliyin uca qülləsində dayanmışlar və bu məqamın sözlərlə təsviri mümkünsüzdür. Amma.

***Çəkə bilməsən də dəryanın suyun,***
***Susuzluğu yatır, qoy olsun payın.***

Bu kitabda oxuyacaqlarınız İslamın rəşadətli sərkərdəsi, tövhid qoşununun güclü qolu, Allah Peyğəmbərinin (s) əmisi və vəfalı dostu həzrət Seyyidüş-şühəda («şəhidlər ağası») Həmzənin həyatına ötəri bir baxışdır. Bu şəxs ilk gündən Allah dinini himayə etdi və Ühüd döyüşündə şəhadət iftixarını qazandı.

Ümid edirik ki, bu həyat tarixçəsi haqpərəstlər üçün bir nümunə olsun və iman kölgəsində kəramət axtaran gənclərə sədaqət

dərsi versin. Olsun ki, bu silsilədən olan digər kitabçalar da oxucuların İslamın tarixi şəxsiyyətləri ilə tanışlığında faydalı ola.

Qum, Cəvad Mühəddisi, 1998

## HƏMZƏNİN FƏZİLƏTLƏRİ

Həmzənin həyat səhifələrini varaqla-dıqda onun iman və əməl baxımından fəzilətləri və yüksək məqamı ilə tanış ola bilsək də, Həzrət Peyğəmbərin (s) və məsum imamların (ə) buyuruqları onun məqamını daha aydın

göstərir. Uyğun buyuruqlardan bəzilərini xatırlayaq.

İslam Peyğəmbəri (s) buyurur: «Qardaşlarımın ən yaxşısı Əli (ə), əmilərimin ən yaxşısı Həmzədir».[1] Başqa bir rəvayətdə oxuyuruq: «Qiyamət günü məhşər səhnəsinə süvari halda daxil olanlardan biri əmim Həmzədir. Allahın və rəsulunun şiri Əzba dəvəyə süvar halda gələr.[2] İmam Baqir (ə) buyurur: «Ərşin sütununa yazılmışdır: «Həmzə Allahın və Onun rəsulunun şiri, şəhidlərin sərvəridir».[3]

İmamlar daim həzrət Həmzənin şəxsiyyətinə, onun və Cəfər Təyyarın nəslindən olduqlarına görə daim fəxr etmişlər. Həzrət Əli (ə) uca məqama malik olmasına baxmayaraq, xilafət məsələsi şuraya tapşırılanda Seyyidüş-şühəda Həmzə kimi əmisinin olmasını özünə imtiyaz saymışdır və xəlifənin təyin olunacağı məclisdə buyurur: «Sizi Allaha and verirəm, aranızda elə bir şəxs varmı ki, Həmzə kimi, Allahın və Onun rəsulunun şiri kimi əmisi olmuş olsun?!»

---

[1] «Biharul-ənvar», 22-ci cild, səh. 274.

[2] Həmin mənbə, səh. 273.

[3] Həmin mənbə, səh. 280.

İmam Hüseyn (ə) də öz növbəsində xalqa Həmzənin şəxsiyyəti haqqında danışaraq, onu tanıtdırmaqla xalqın döyüş əhval-ruhiyyəsini gücləndirir. İmam Hüseyn (ə) Kərbəladakı xütbələrində, imam Səccad (ə) Dəməşq məscidindəki nitqində Həmzə ilə iftixar edir. İmam Baqir (ə) «Əhzab» surəsinin 23-cü ayəsini («Möminlər arasında Allahla bağladıqları əhdə sadiq olanlar var. Onlardan kimisi şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir.) təfsir edərkən buyurur: «Allah ilə elə əhd etmişdilər ki, heç zaman qaçmasınlar. Əhdinə vəfa edən və əcəli çatanlar Həmzə ilə Cəfər oldu. Şəhadətini gözləyən isə Əli (ə) idi.[1]

Allahın Rəsulu (s) buyurmuşdu: «Qiyamət günü mənə dörd bayraq verilər: «Həmd» bayrağını özüm tutaram; «La ilahə illəllah» bayrağını Əliyə (ə) verərəm, o, yüngül hesabdan sonra behiştə daxil olacaq dəstənin önündə gedər; «Əllahu əkbər» bayrağını isə Həmzəyə tapşıraram, o başqa bir dəstənin önündə olar; «Sübhan əllah» bayrağını isə Cəfərə verərəm, onun arxasında bir dəstə

---

[1] «Biharul-ənvar», 22-ci cild, səh. 277.

insan dayanar. Həmin vaxt ümmətimin şəfaəti üçün onların yanında dayanaram».[1]

İslam Peyğəmbəri (s) hicrətdən sonra müsəlmanlar arasında qardaşlıq əqdi yaradarkən, onları qardaşlaşdırarkən, Həmzə ilə Zeyd ibn Harisə arasında da qardaşlıq əqdi oxuyur.[2]

Seyyidüş-şühəda, yəni «şəhidlər ağası» ləqəbini Həmzəyə həzrət Peyğəmbər (s) verdi.[3] Hüseyn ibn Əlinin Kərbəlada şəhadətindən sonra bu ləqəb daha çox ona aid edilmişdir.

Cabir ibn Abdullah deyir: «Bir gün Müaviyənin göstərişi ilə Ühüddə quyu qazılırdı. Qazıntı zamanı sanki yenicə basdırılmış Ühüd şəhidlərinin cəna-zələri üzə çıxdı. Oradakılar hönkürtü vurub ağladılar. Həmin vaxt Ühüd savaşından 40 il ötmüşdü. Həmzənin cənazəsinin bel ilə zədələnmiş ayağından qan axdı».[4]

Peyğəmbər (s) Həmzəyə xüsusi bir məhəbbət bəsləyirdi. «Həmzə» adını o qədər xoşlayırdı ki, övladı üçün ondan ad istəyənlərə

---

[1] Həmin mənbə, 8-ci cild, səh. 7.

[2] «Əyanuş-şiə», 6-cı cild, səh. 244.

[3] Həmin mənbə, 6-cı cild, səh. 243.

[4] «Tənqihul-məqal», 1-ci cild, səh. 375.

bu adı təklif edirdi. Həzrət (s) övladı üçün ad istəyən bir kişiyə buyurdu: «Onun adını «Həmzə» qoy. Bu ad mənim üçün ən əziz adlardandır».[1]

## HƏMZƏ İSLAMDAN QABAQ

Peyğəmbərin (s) babası Əbdül-Müttəlib Hicazın sevimli şəxslərindən idi. Bəni-haşim qəbiləsi içində onun xüsusi hörməti vardı. Oğlanları Əbdül-Müttəlibin şöhrətini daha da artırırdılar. «Əshabe-fil» hadisəsin-dən dörd il qabaq onun daha bir oğlu oldu və körpənin adını Həmzə qoydular. Həmzə Əbdül-Müttəlibin və anası Halə binti Vəhəbin ağuşunda boya-başa çatdı. Halə binti Vəhəb İslam Peyğəmbərinin (s) anası Amənənin əmisi qızı idi.[2] Həmzə bu ailədə nəfsitox, cəsarətli və səxavətli bir uşaq kimi tərbiyələnirdi. Həmzənin uşaqlıq dövründə bu ailədə daha bir övlad, Abdullahın oğlu Məhəmməd dünyaya gəldi. Həzrət

---

[1] «Kafi», 6-cı cild, səh. 19.

[2] «Üsdul-ğabə», 2-ci cild, səh. 46.

Məhəmməd (s) Həmzədən dörd yaş kiçik idi.[1] Bu yaş fərqi səbəbindən Həmzənin uşaqlıq və gənclik dövrü Peyğəmbərlə birgə keçirdi. Bundan əlavə, Peyğəmbər (s) Həmzə ilə süd qardaşı idi. Peyğəmbər (s) Həlimə Sədiyyəyə tapşı-rılmamışdan qabaq ona bir neçə gün Əbu-Ləhəbin kənizi süd vermişdi. O, Həmzənin də süd anası idi. Həmzənin uşaq yaşlarından Peyğəmbərlə yaxınlığı ona bir sıra fəzilətlər qazandırmışdı. Hicaz mühiti həmin dövrdə fitnə-fəsadla dolu olsa da, Həmzə heç vaxt günaha yol verməmişdi. O, xoşagəlməz rəftarlardan çəkinər və həzrət İbrahimin pak ayinlərinə əməl edərdi. Həmzə daim saleh işlər ardınca tələsərdi. O yaxşı at çapar, ox atar və öz dövrünün pəhləvanları ilə kəmər tutardı. Həmzənin sağlam və güclü bədəni vardı. Onu övladlarının adı ilə «Əbu-Yəla» və «Əbu-Əmmarə» çağırardılar. Həzrət Peyğəmbər (s) Xədicə ilə evlənmək istədikdə əmiləri ilə məsləhətləşdik-dən sonra, nəhayət, Həmzə ilə birgə Xədicənin atası Xüvəylidin yanına elçi-liyə getdilər.[2] Bəzilərinin fikrincə, Xüvəylid bu izdivacdan qabaq dünyasını

---

[1] Muğazi, Vaqidi, 1-ci cild, səh. 70.

[2] «Tarixe-peyğəmbəre-İslam», səh. 69.

dəyişmişdi və elçilikdə Xədicənin əmisi Əmru ibn Əsəd iştirak edirdi.

Həzrət Məhəmmədin (s) peyğəmbərliyinin başlanması ilə əzabkeş Hicaz xalqı üçün ümid qapısı açılmışdı. İslamı qurtu-luş yolu kimi qəbul edənlər tədricən ona iman gətirirdilər və yeni ayinin nüfuzu günbəgün artırdı. Bu vəziyyət müşrikləri narahat edirdi. Onlar Peyğəmbər əleyhinə təbliğatlarını gücləndirirdilər.

Həmzə Peyğəmbərin (s) dəvətinin haqq olmasına əmin idi. Həzrətin (s) əxlaqı, rəftarı, şəxsiyyəti və bəyanları Həmzəni inandırmışdı ki, o, həqiqətən də, Allahın peyğəmbəridir. Amma Həmzə öz imanını açıqlamağı məsləhət bilmirdi. Bundan ötrü münasib fürsət lazım idi. Həmzə fürsət axtarırdı ki, öz qanlı qılıncının kölgəsində müşriklərlə vuruşsun və Allahın dinini müdafiə etsin. Həmzə öz imanını gizlətdiyindən rahatcasına Qüreyş başçılarının top-lantılarında iştirak edir və onların söhbətlərindən xəbərdar olurdu.

Bir gün Həmzə Kəbə yaxınlığında Qüreyş başçıları ilə oturub, onların söhbət-lərini dinləyirdi. Müşriklər onların saraylarını alt-üst edəcək tufan haqqında danışırdılar. Bu tufan onların arzularını, xalqı azdırıb bəhrələnmək

məqsədlərini gözlərində qoyası idi. Haqqında danışdıqları kəs onların başqalarının bədbəxtliyi üzərində qurulmuş xoşbəxtliklərini hədələyirdi. Onların söhbəti gəncləri özünə tərəf çəkən, guya ailələrdə ixtilaf salan Məhəmməd və onun yeni ayinləri haqqındaydı.

İslamın yaşı artdıqca, müsəlmanların sayı çoxaldıqca Qüreyşdən olan düşmən-lərin müqaviməti də güclənir, kinləri aşkara çıxır, Peyğəmbər və müsəlman-larla ədavətləri həddi aşırdı. Həmzə bütün baş verənləri diqqətlə izləyirdi. Həzrət Peyğəmbərin (s) dözüm və iradəsi onu heyrətə gətirirdi. Peyğəmbərin (s) səbr və mübarizəsi Həmzənin qəlbindəki imanı gücləndirir və şirkin ona yol tapmasının əbədi olaraq qarşısını alırdı. O, uşaqlıqdan Peyğəmbərlə ünsiy-yətdə olmuşdu. Bilirdi ki, Peyğəmbər sədaqətli, əmanətdar və doğruçudur. Onun qəlbində Həzrət Məhəmmədə (s) qarşı gizli bir eşq çağlayırdı. Nəhayət, münasib fürsət yarandı və Həmzə öz imanını izhar etdi.

Bəziləri onun besətin (peyğəmbərliyin) ikinci, bəziləri isə besətin altıncı ili İslamı

qəbul etdiyini bildirirlər.[1] Hər halda Həmzənin İslamı qəbul etməsi səhnəsi olduqca maraqlıdır.

## HƏMZƏ İSLAMI QƏBUL ETDİYİNİ BİLDİRİR

Əbu-Cəhl Məkkədə şirk başçılarından idi. O, cidd-cəhdlə bütpərəstliyi himayə edirdi. Bir gün həzrət Peyğəmbər (s) Səfa dağının yanından keçərkən Əbu-Cəhl onun qarşısını kəsdi, ona və İslama təhqirlər yağdırdı. Nəhayət, yorulub, Kəbəyə doğru getdi və Kəbənin yaxınlığındakı bir dəstə qüreyşlə oturdu. Həzrət Məhəmməd (s) Əbu-Cəhlin bu hərəkətini cavabsız qoydu.

Kəbə yaxınlığında əyləşənlər hələ evlərinə dağılışmamış Həmzə göründü. O daim ova gedər və ovdan qayıtdıqda əvvəlcə Allah evini təvaf edərdi. (təvaf-Kəbənin başına dolanmaq) Kəbə ətrafında adamların toplaşması Həmzəyə təəccüblü göründü. Abdullah ibn Cədanın kənizi Səfa ətəyindəki otağından Peyğəmbərin (s) təhqir olunması səhnəsini görmüşdü. O, özünü Həmzəyə çatdırıb, baş vermiş hadisəni olduğu kimi danışdı. Həmzə möhkəm

---

[1] «Üsdul-ğabə» 2-ci cild, səh. 46; «Əyanuş-şiə» 1-ci cild, səh. 243.

qəzəbləndi və fəryad çəkərək dedi: «Əbu-Cəhl haradadır?» Həmzənin qəzəbindən qorxuya düşmüş müşriklər Əbu-Cəhli göstərdilər.

Həmzə qızmış şir tək Əbu-Cəhlin üstünə şığıdı. Ona macal verməyib, əlindəki kamanla başına bir zərbə vurdu. Əbu-Cəhlin başı yarıldı, üzünü qan bürüdü.[1] Sonra onu yerə yıxıb, ayağını boğazına dirədi və boğmaq istədi. Amma Əbu-Cəhlin ölümü fitnə-fəsada daha da rəvac verərdi. Ətrafdakı adamlar yaxınlaşıb, çətinliklə də olsa, Əbu-Cəhli Həmzənin əlindən aldılar.[2]

Hadisəyə şahid olanlar Həmzənin müsəlmanlığından xəbərsiz olduqları üçün onun bu hərəkətini məzluma kömək, cavanmərdlik kimi yozdular. Onun qəzəbini soyutmaq və İslama qarşı mənfi hisslərini qızışdırmaq üçün dedilər: «Sən ki müsəlman deyilsən, nə üçün Məhəmmədin (s) incidilməsi səni narahat etsin?!» Deyilən sözlər Həmzəni daha da qəzəbləndirdi. Qəlbində aşıb-daşan imanı açıqlamaq zərurəti yaranmışdı. Həmzə öz sirrini açaraq dedi: «Mən müsəlmanam. Allahın birliyinə və Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verirəm. Əşhədu əlla

---

[1] İbn Əsir, Kamil, 1-ci cild, səh. 501.

[2] «Biharul-ənvar», 18-ci cild, səh. 211.

ilahə illəllah və ənnə Muhəmmədər-rəsulullah. And olsun Allaha, imanımdan əl çəkməyəcəm. Əgər gücünüz varsa, mənim qabağımda dayanın.[1] Həmzənin sözləri müşrikləri elə yandırdı ki, ona hücum etdilər. Amma dağ tək əzəmətli Həmzəni yerindən tərpətmək müşkül bir iş idi. Əbu-Cəhl də hücum edənlərin qarşısını almağa çalışdı. O, işin sonundan qorxur və canını təhlükəyə atmaq istəmirdi.

Həmzənin öz müsəlmanlığını açıqlaması bir sıra dəyişikliklərə səbəb oldu. Peyğəmbərin (s) mövqeyi möhkəmləndi, qüreyşin planları alt-üst oldu, həzrətin (s) qəlbini isitdi.

Həmzənin qəzəbi soyuduqdan sonra qəlbini sakitləşdirmək, imanını möhkəmlən-dirmək üçün Peyğəmbərin (s) yanına gəldi və ərz etdi: «Dediklərin həqiqətdirmi?» Həzrət (s) buyurdu: «Bəli» və Həmzə üçün bir neçə ayə oxudu. Eşitdiyi Allah kəlamları Həmzənin qəlbinə sığal çəkdi və imanını gücləndirdi.

Həmzə həzrət Məhəmmədə (s) dedi: «Dinini aşkarla. And olsun Allaha, istəmirəm ki, səmanın kölgə saldığı şey mənim olsun və keçmişdəkilərin ayinində qalım.[2] Həzrət

---

[1] «Əyanuş-şiə», 6-cı cild, səh. 243.

[2] «Əssəhih min sirətil-rəsulil-əzəm», 2-ci cild, səh. 77.

Peyğəmbər (s) ona dua etdi və Allahdan istədi ki, Həmzənin imanını möhkəmləndirsin.

Həmzənin izhar etdiyi müqəddəs qeyrət, onun peyğəmbər və İslamı himayəsi, Əbu-Cəhlin təhqirlərinə layiqli cavab verməsi tərifəlayiqdir. İmam Səccad (ə) bu qeyrət və əzmi mədh etmiş, Həmzənin uyğun münasibətlərini onun behiştə daxil olması üçün amil saymışdır.[1] Müsəlmanlığını məqamında izhar etmiş Həmzə belə bir şer oxumuşdur:

***Həmd olsun qəlbimi düzən Allaha,***
***İman nurun cana süzən Allaha.***
***Bir dinlə hidayət qıldı ki məni,***
***Bu din bəndələrin səadət şəmi.***
***Oxunduqca bizə o nur ayələr***
***Nisgil dolu gözdən sevinc ələnər.***
***Fələklərdən ayə enən o rəhbər***
***Nemətdir, baxmayın ona birtəhər.***
***And olsun Allaha, nə qədər varam***
***Onu ağır gündə tənha qoymaram.***[2]

---

[1] «Biharul-ənvar», 22-ci cild, səh. 273.

[2] «Əyanuş-şiə», 6-cı cild, səh. 244.

Həmzə İslam ayinlərinə əqidəsini aşkarladıqdan sonra qüreyş anladı ki, Peyğəmbərin (s) müdafiə gücü artmışdır. Bu səbəbdən də Peyğəmbərə qarşı pislik-lərini bir qədər məhdudlaşdırdılar.[1] Bu hadisə Əbu-Talibi də çox sevindirdi. O, Həmzənin əzm və iradəsi haqqında şer də qoşdu.[2]

İslamın başlanğıc dövründə Həmzənin himayədarlığı əhəmiyyətli rol oynadı. Onun şücaəti məsum imamların da diqqət mərkəzində olmuşdur. Həzrət Peyğəmbərin (s) vəfatından sonra Həmzənin yoxluğu daha çox hiss olunur. Hətta xilafət qəsb olunduğu vaxt Əmirəl-möminin (ə) Həmzəni xatırlayaraq buyurur: «And olsun Allaha, əgər Həmzə və Cəfər sağ olsaydılar, heç vaxt filankəs xilafətə tamah salmazdı. Amma nə edim ki, Əqil və Abbasla qalmışam!» Həzrət (ə) Səqifənin səhəri gün Həmzə və Cəfəri yardıma çağırır, «Ey Cəfər, ey Həmzə», deyə fəryad edir.

Sudəyr deyir: İmam Baqirin (ə) yanında idim. Peyğəmbərin (s) vəfatından sonrakı dövrdən söhbət düşdü. Deyildi ki, həmin vaxt Əliyə (ə) yardım edilmədi. Bir şəxs imamdan soruşdu ki, bəs bəni-Haşimin gücü-qüvvəsi

---

[1] «Sireye-ibn-Haşim», 1-ci cild, səh. 312.

[2] «Tarixe-Peyambəre-İslam», səh. 98.

harada idi ki, imama yardım göstərilmədi. Həzrət (ə) buyurdu: «Bəni-Haşimdən kim qalmışdı ki? Cəfər və Həmzə şəhadətə yetişmişdi, Abbas və Əqil isə gücsüz idi. Bir də onların müsəlmanlığından elə də böyük müddət ötüşməmişdi. And olsun Allaha, Həmzə və Cəfər sağ olsaydılar, həmin iki şəxs (iki xəlifə) arzusuna çatmazdı. Onlar canlarını fəda edərdilər ki, həmin vəziyyət yaranmasın».[1]

İmam Baqirin (ə) dilindən nəql olunmuş bu sözlər həzrət Seyyidüş-şühədanın vücudundakı imanın dərinliyini, yüksək rəşadətini və Allahın rəsulunu himayə-sini açıq şəkildə göstərir. İslamın ilkin qəribçilik dövrlərində Həmzə öz himayəsini ondan əsirgəmədi. Həzrət Peyğəmbərin (s) evinin qabağına çirkab tökmək Əbu-Ləhəbin adəti idi. Bir dəfə Həmzə Əbu-Ləhəbin bu işinə şahid olur. Həmin çirkabı götürüb Əbu-Ləhəbin başına tökür. Əbu-Ləhəb üz-gözündən çirkabı təmizləyə-təmizləyə «axmaq təkal-lahlı» deyir. Sonralar başqalarını bu işə

[1] «Səfinətul-bihar», 1-ci cild, səh. 338.

təhrik etsə də, özü bir daha belə rəftara cürət etmir.[1]

Həmzənin peyğəmbərlə yaxınlığı mömin-lərin ümidini artırırdı. Ömər ibn Xəttab İslamı qəbul etməmişdən qabaq Peyğəmbər (s) və onun ayinlərinə qəzəblə-nərək müsəlman olmuş bacısının evinə gedir. Amma orada Quran ayələrini eşidib, qəlbi yumşalır. Ömər həzrət Peyğəmbərin (s) özü ilə görüşmək istəyir. Bu məqsədlə onun evinə gəlir. Həmin vaxt orada müsəlmanlar cəm olmuşdular. Silahlı Ömər qapını döyür. Evdəki müsəlmanlar Ömərin səsini tanıyıb, qorxurlar. Amma Həmzə tövrünü pozmadan deyir: «Qoyun daxil olsun. Əgər məqsədi xeyirdirsə, xidmətindəyik. Yox əgər pis məqsədlə gəlmişdirsə, öz qılıncımızla onu öldürərik!»

Peyğəmbər (s) Ömərə daxil olmaq icazəsini verir. Ömər Həzrətlə (s) görüşdən sonra İslamı qəbul edir.[2]

## HİCRƏT ASTANASINDA

Həzrət Məhəmmədin (s) ardıcıllarına təzyiqlər artırdı. Bir qrup müsəlman qüreyşin hücumlarından amanda qalmaq üçün

[1] «Qamusur-rical», 7-ci cild, səh. 40.

[2] «Sireye-ibn-Haşim», 1-ci cild, səh. 370.

Həbəşəyə hicrət etdilər. Həzrət (s) Taifdə münasib şərait görmədiyindən Yəsribə (sonradan Mədinə adlandı) hicrət etmək qərarına gəldi. Həmzə Məkkədə qalıb peyğəmbəri himayə edənlər arasında idi.

Peyğəmbər (s) həcc mərasimində bir qrup yəsribli müsəlmanla gizli şəkildə görüşdü və onlar İslamı qəbul etdik-lərini bildirdilər. Minanın Əqəbə hissəsində sonralar «Əqəbə peymanı» kimi tanınmış müqavilə bağlandı. Bu müqaviləyə əsasən Peyğəmbərin (s) Mədinəyə hicrətin təmin olunmalı idi. Bu hadisədə Həmzənin də mühüm rolu vardı. Həzrət Peyğəmbər (s) həcc əməllərindən sonra Əbdül-Müttəlibin Əqəbədə yerləşən evində Mədinədən gələn nümayəndələrlə görüşdü. Bu görüş müşriklərdən gizli keçirilirdi. Onlar Peyğəmbərlə müdafiə haqqında müqavilə bağladılar və söz verdilər ki, Peyğəmbəri və mühacir müsəl-manları canları-qanları ilə qoruyacaq-lar.

Müşriklərin bu görüşə mane olmama-ları üçün Həmzə və Əli (ə) keşikdə dayanmışdı. Əqəbədə Peyğəmbərin (s) gizli şəkildə bir qrup adamla görüşdüyünü eşidən müşriklər silahlanıb, həmin yerə gəldilər. Onları əli qılınclı Həmzə və Əli (ə) qarşıladı. Toplantı

haqqında soruşub, həmin yerə getmək istədikdə Həmzə dedi: «Burada kimsə yoxdur və biz heç kimi görməmişik. And olsun Allaha, kim keçmək istəsə, onu öldürəcəyəm.

Bu səs Peyğəmbərin (s) və ona beyət edənlərin qulağına çatdı. Məclisdəkilər qılınca əl atmaq istəsələr də, həzrət (s) buna etiraz etdi və buyurdu: «Döyüşmək vəzifəmiz yoxdur». Sonra məclisdəkilərin dağılıb getməsini istədi. Oradakılar fürsətdən istifadə edib, məclisi tərk etdilər. Peyğəmbər (s) isə Məkkəyə qayıtdı.[1]

Tədricən hicrət üçün şərait yaranırdı. Həmzə Peyğəmbərin (s) və Əlinin (ə) yanında idi. O, İslamın müdafiəsinə və bu yolda hər bir fədakarlığa hazır idi. Peyğəmbər (s) hicrət etməmiş bir qrup müsəlman Məkkəni tərk edib, Mədinəyə üz tutdu.

## MƏDİNƏDƏ

Məkkədəki ağrılı-acılı illər arxada qaldı. Peyğəmbər (s) və müsəlmanlar Mədinəyə hicrət etdilər. Həmzə də ilkin hicrət edən müsəlmanlardan idi. O da digər mühacirlər kimi Peyğəmbərin (s) gəlişi intizarındaydı.

---

[1] «Biharul-ənvar», 19-cu cild, səh. 12.

Həzrət Peyğəmbər (s) Mədinədə hökumət təşkil etdi. Cəmiyyət Allahın dini əsasında qurulmağa başladı. Hicrətdən bir qədər sonra peyğəmbər Həmzə, Əli (ə) və Fatiməni (s) çağırıb, onlara buyurdu: «Mənimlə beyət edin, razılıq beyəti!» Həmzə soruşdu: «Atam-anam sənə fəda olsun, nəyə beyət edək, məgər əvvəl beyət etməmişik?» Peyğəmbər (s) buyurdu: «Ey Allahın və Onun rəsulunun şiri! Allah və Onun rəsulu ilə vəfadarlıq və möhkəmlik beyəti et. Bu yolla imanın kamilləşəcək». Həmzə dedi: «Olsun, baş üstə». Sonra isə beyət üçün əlini uzatdı.[1]

Zaman keçir, İslamın günbəgün artan qüdrəti düşmənləri daha çox qorxuya salırdı. Onlar İslama zərbə vurmaq haqqında planlar cızırdılar. Möminlər isə Allahın dinini canları-qanları ilə qorumaq əzmindəydilər. Artıq iman Həmzənin ruhunda və canında kök atmışdı. O, müsəlman olduğu gündən Allahın əmrləri qarşısında təslim olmuş, Onun rəsuluna itaət etmiş, həyatını və gücünü bu yolda xərcləmişdi. Buna görə də o, «əsədullah və əsədul-rəsulihi» («Allahın şiri və Onun rəsulunun şiri») ləqəbini qazanmışdı.

[1] «Biharul-ənvar», 22-ci cild, səh. 278.

Müsəlmanların müşriklərlə ilk döyü-şündə Həmzə qoşun başçısı məqamına yüksəldi.

Peyğəmbərin (s) bayraq verdiyi və hərbi iş ardınca göndərdiyi ilk şəxs Həmzə oldu. Əbu-Cəhlin rəhbərlik etdiyi, Şamdan qayıdan 300 nəfərlik karvan dəniz sahilinə çatdı. Həmzə yarısı mühacir, yarısı ənsar olan 30 nəfərlik dəstə ilə həmin yerdə karvana çatdı. Tərəflər döyüş üçün sıraya düzüldülər. Amma hər iki tərəflə peymanı olan bir şəxsin vasitəçiliyi ilə döyüş baş tutmadı.[1] Həmzə və yoldaşları Mədinəyə qayıtdılar, Əbu-Cəhl isə karvanla birlikdə Məkkəyə yola düşdü. Bununla belə, Həmzə ilk dəfə peyğəmbərdən bayraq alıb, meydana gedən şəxs adını qazandı. Bu hadisə hicrətin ilk ilində, ramazan ayında baş vermiş-di.[2]

Nəql olunur ki, Həmzə Əbu-Cəhlin dəstəsi ilə rastlaşdıqda bir şer oxudu. Bu şerdə ilk dəfə meydana göndəril-məsini özü üçün iftixar sayırdı.[3]

---

[1] «Sireye-ibn-Haşim», 2-ci cild, səh. 245.

[2] Məcazi 1-ci cild, səh. 246.

[3] «Sireye-ibn-Haşim», 2-ci cild, səh. 246.

# BƏDR DÖYÜŞÜ

Təcavüzkar kafirlər və müşriklər müsəlmanların güclənməsindən çox narahat idilər. Onlar Mədinəyə hicrət etmiş müsəlmanların Məkkədəki evlərini qarət edir, xaraba qoyurdular. Artıq mövqelər aşkarlanmışdı. Müsəlmanlar belə bir qərara gəldilər ki, qüreyşin Məkkəyə xeyli mal aparan ticarət karvanını müsadirə etsinlər. Bundan xəbər tutan qüreyş başçıları karvana güclü bir mühafizə dəstəsi qoşmuş-dular. Karvana Əbu-Süfyan başçılıq edirdi. O, karvanın yolunu dəyişib, müsəlmanların ağlına gəlməyən bir yolla hərəkət etmək istədi. Müsəlmanların da savaş məqsədləri yoxdu. Amma təsadüfi görüş döyüşü labüdləşdirdi. Küfr başçılarının təkəbbürü də qarşıdur-manı qaçılmaz edən səbəblərdən oldu. Onlar müsəlmanları qorxutmaq üçün döyüşmək qərarına gəldilər. Hər iki dəstə üzbəüz düzüldü. Allahın yardımı, qeybi ümidlər İslam qoşununu ruhlan-dırırdı. Düşmən qoşunu isə tərəddüdlər içində çabalayırdı. Onlar hərbi cəhətdən üstün olsalar da, qəlblərindənki tərəddüdlər mövqelərini zəiflədirdi. Döyüş başlamazdan qabaq kafirlərin Əsvəd Məxzumi adlı bir başçısı

döyüşçülərdəki ümidsizliyi görüb, onları şücaətləndirmək qərarına gəldi. Ona görə də o bir gedişlə döyüşçüləri hərəkətə gətirməyə çalışdı. Onlarla belə bir müqavilə bağladı ki, üç yoldan birini seçsinlər: ya özlərini müsəlmanların hovuzlarına çatdırıb su içsinlər, ya hovuzları dağıtsınlar, ya da öldürülsün-lər. Özü isə qoşundan ayrılıb, hovuzlara tərəf hərəkət etdi. Amma məqsədə çatmamış Həmzə ilə üz-üzə gəldi. Həmzə bir zərbə ilə onun qılçasını üzdü.[1] Əsvəd yerə yıxılmasına və ayağından qan axmasına baxmayaraq, sürünə-sürünə özünü hovuza çatdırmaq istədi. Amma Həmzənin iti qılıncı onun boğazına dirəndi və başı bədənindən ayrıldı. Beləcə, Həmzə Əsvədin su içmək arzusunu gözündə qoydu.[2]

Həmzənin şücaəti tövhid qoşununun əzmini artırdı və müşriklərin canına üşütmə saldı. Sonra döyüşün ilk mərhə-ləsi, təkbətək döyüş başlandı. Müşrik-lərdən üç döyüşçü qabağa çıxıb, qarşı tərəfdən rəqib tələb etdi. Müsəlmanlar Əli (ə), Həmzə və Übeydə meydana girdi. Həmzə həmin gün yaxasına

---

[1] «Sireye-ibn-Haşim», 2-ci cild, səh. 276.

[2] «Tarixe-Təbəri», 2-ci cild, səh. 127.

dəvəquşu lələyi sancmışdı. Bu əlamət onu müsəlman döyüşçülər arasında fərqləndirirdi.[1]

Əli (ə) Vəlidlə, Həmzə Şeybə ilə, Übeydə isə Ütbə ilə üzbəüz dayanmışdı. Allah-təalanın şir ürəkli mücahidlərinin təkbir sədaları altında döyüş başlandı. Qılıncların parıltısı meydanın toz-dumanında görünməz oldu. Ürəklər döyünür, gözlər intizar içində döyüş meydanını izləyirdi. Çox keçməmiş Əli (ə) və Həmzə öz rəqiblərinə qalib gəlib, ayağı kəsilmiş Übeydənin köməyinə tələsdilər və müşrik döyüşçünün boynunu vurub, onu həlak etdilər.[2]

Daha sonra ümumi həmlə başlandı. Həmzə böyük rəşadət və qəhrəmanlıqla döyüşə girişib, düşmən ordusunun köksünə vardı. O, qorxudan döyüşçülər arasında gizlənmiş bir çox küfr başçılarını öldürdü və növbəti bir qəhrəmanlıq dastanı yaratdı. Hamı Həmzənin şücaətindən danışırdı. Onun yaxın silahdaşı Əmirəl-möminin (ə) belə buyurur: «Müşriklərdən birini təqib edirdim. Bir müsəlmanla bir müşrikin vuruşduğunu gördüm. Bu döyüşdə müsəlman şəhid oldu. Polad zireh geymiş Təyəmə adlı qatil məni

---

[1] Məğazi 1-ci cild, səh. 76.

[2] İbn Əsir, Kamil, 1-ci cild, səh. 531.

tanıyıb, nərə çəkərək dedi: «Ey Əbu-Talib oğlu, meydana gəl!» Sonra isə qılınc çəkib, hücuma keçdi. Mən qalxanla özümü müdafiə etdim. Amma onun ağır zərbəsi qalxanı əzdi. Qılıncımla onun cavabını verdim və boynundan bir zərbə vurdum. Başının üzüldüyünü zənn etdim. Amma zireh möhkəm olduğundan qılınc təsir etməmişdi. Bu vaxt arxadan bir qılınc parladı. Başımı aşağı saldım. Göydən enən qılınc düşmənin başını papağıyla birgə üzüb atdı. Bu vaxt qulağımda isti və tanış bir səs cingildədi: «Tut onu, ey Əli! Mənəm, Əbdül-Müttəlibin oğlu». Dönüb arxaya baxanda Seyyidüş-şühəda əmimi gördüm. Öldürülmüş müşrik isə ərəbin şücaətli qəhrəmanlarından sayılan Təyəmə ibn Ədi idi».[1]

Tarixçilər Bədr döyüşü haqqında yazırlar ki, bu döyüşdə müşriklərin əksəriyyətini Həmzə və Əli (ə) öldürdü. Bədr döyüşü başa çatanda müşriklərin yetmişə yaxın cəngavərinin cəsədi torpağa sərili qalmışdı. Bu zərbə qüreyşi sarsıtdı. Həmzənin öldürücü qılıncını müşriklər heç vaxt unutmadılar. Bundan sonrakı döyüşlərdə müsəlmanlara qarşı fitnəni

---

[1] «Biharul-ənvar», 19-cu cild, səh. 338.

qızışdıran Əbu-Süfyan Məkkə-nin fəthi zamanı canını qurtarmaq məqsədi ilə riyakarcasına İslamı qəbul etdi. Osmanın vaxtında Ühüddə Həmzənin qəbri yanından keçərkən qəbiri təpik-ləməklə öz kinini bildirmişdi və tənə ilə demişdi: Ey Əbu-Əmarə! O şeydən (xilafət) ötrü ki, bir-birimizə qılınc çəkirdik, bu gün həmin şey bizim uşaqlarımızın əlindədir və onunla əylənirlər!»[1]

## ŞƏHADƏT ŞÖVQÜ

Hadisələr bir-birini əvəz edirdi. Məkkədən gələn xəbərlər açıq-aşkar düşmənin məkrlərindən danışırdı. Haqla batilin baş-başa gəlməsi qaçılmaz idi. Dinin hifzi və İslam məktəbinin qorunması böyük fədakarlıqlar tələb edirdi. Həmzənin iman və etiqadı getdikcə möhkəmlənirdi. O, fədakarlıq üçün alışıb-yanırdı. Artıq Ühüd savaşı üçün şərait yaranmaqdaydı. Sanki Allah-təala öz imtahan və sınağı sayəsində, çətin hadisələr burulğanı və qanlı savaşlarda müsəlmanların fədakarlıq və möhkəm-liyini nümayiş etdirmək istəyirdi.

---

[1] «Şərhe-Nəhcül-bəlağə», 16-cı cild, səh. 136.

Həmzə səfər azuqəsini hazırlamış müsafir tək əbədi saraya doğru tələsməkdəydi. Məbudla görüş şövqü onun əl-ayağından dünya bağlarını açmışdı. O, azad və rahat idi.

Amma daxilində başqa bir qovğa vardı. Onun dar cisim qəfəsi uca ruhuna tab gətirmirdi. Həmzənin ruhunda kök atmış məhbubla görüş şirinliyi duyğusu intizar kölgəsini ağırlaşdırmışdı. Onun yalnız ilahi zikrə məşğul olan dil-dodağı danışıq və təamdan imtina etmişdi. Son gecə gəlib çatdı. Bu gecə Həmzənin qədr gecəsi idi. Bu gecənin səhəri Allah yolunda şəhadət səadəti Həmzənin sorağına gələcəkdi.

Həmin gecə həzrət Peyğəmbər (s) Həmzəni yanına çağırıb buyurdu: «Əmican, zənnimcə, tezliklə məndən uzaq düşəcək və məndən qeybdə olacaqsan. Demək istəyirəm ki, Allahla görüş zamanı səndən İslam və iman şərtləri haqqında soruşulanda nə cavab verəcəksən?» Bu sözlərdən şəhid olacağını anlayan Həmzənin gözləri yaşla doldu və dedi: «Ey Peyğəmbər, mənə yol göstər və bu sualların cavabını öyrət». Həzrət (s) buyurdu: «Ey Həmzə, ixlasla şəhadət ver ki, «la ilahə illəllah, muhəmmədər-rəsulullah». Həmzə dedi: «Şəhadət verirəm». Peyğəmbər (s)

sözünə davam etdi: «Sonra de ki, behişt və cəhənnəm haqdır, qiyamət günü gələcək və ona heç bir şəkk yoxdur. Şəhadət ver ki, sirat və mizan haqdır. Hər kəs zərrəcə yaxşılıq və pislik etsə, əməlinin mükafatını və cəzasını görəcək. Şəhadət ver ki, bir dəstə behiştdə və digər bir dəstə cəhənnəmdə olacaq. Şəhadət ver ki, Əli (ə) əmirəl-möminindir». Həmzə dedi: Şəhadət verirəm və bütün bunları etiraf edirəm, inanıram». Həzrət əlavə etdi: «Şəhadət ver ki, Həsən (ə) və Hüseyn (ə), eləcə də, Hüseynin (ə) nəslindən gələcək imamlar haqdırlar». Həmzə ərz etdi: «İnanıram və təsdiq edirəm».

Həzrət (s) öz söhbətində yeni bir mərhələyə keçdi və öz buyuruqları ilə Həmzəni riqqətə gətirdi: «De ki, Həmzə Seyyidüş-şühəda, şəhidlər ağası, Allah və Onun rəsulunun şiri və Peyğəmbərin (s) əmisidir». Şəhadət qoxulu sözləri eşidib, Həmzə o qədər ağladı ki, heydən düşdü. Sonra bu xoş müjdənin şükrü olaraq, dodaqlarını Peyğəmbərin (s) gözlərinə qoyub öpdü. Həzrət (s) buyurdu: «De ki, qardaşım Əbu-Talibin oğlu Cəfər behiştdə mələklərlədir. Şəhadət ver ki, Məhəmməd və onun ailəsi Allah məxluqlarının ən üstünləridir».

Sonra Peyğəmbər (s) Həmzəyə xitabla buyurdu: «Ey Həmzə, Peyğəmbər Əhli-beytinə (s) iman gətir, ölümün və həyatın bu əqidə əsasında olsun. Onların dostu ilə dost, düşmənləri ilə düşmən ol». Həmzə dedi: «Ey Allah Rəsulu! Bütün deyilənlərin doğruluğunu təsdiq edirəm. Bu əqidəmə Allahı şahid tuturam».

Nəhayət, Peyğəmbər (s) Həmzəyə dua edib, buyurdu: «Allah səni öz əqidəndə möhkəm və müvəffəq etsin.»[1] Həmzənin din yolunda fədakarlığa eşqi misilsiz idi. Əbu-Süfyanın Mədinə üzərinə qoşun çəkməsi xəbəri gələndə müsəlmanlar iki yoldan birini seçməli oldular: onlar ya şəhərdə qalıb, düşmənlə Mədinə küçələrində döyüşməli, ya da şəhərdən çıxıb, müşrik qoşunu ilə üzbəüz dayanmalıydılar. Bədr döyüşündə iştirak edə bilməmiş cavanlar təklif edirdilər ki, döyüş şəhərdən kənarda olsun. Onlar düşmənlə savaş və şəhadət eşqindəydilər. Bəzi yaşlılar və düşüncə sahibləri, eləcə də Həmzə dedi: «Ey peyğəmbər, qorxuruq ki, şəhərdə qalsaq, düşmən ondan çəkin-diyimizi zənn edər və bu ehtimal onları daha da cəsarətləndirər. Bədr

---

[1] «Biharul-ənvar», 22-ci cild, səh. 278.

döyüşündə 300 nəfərlə idin və Allah sənə qələbə nəsib etdi. Bu günsə biz çoxuq. Məgər belə bir günün gəlib çatmasının gözləmirdikmi?! Biz bunu Allahdan istəmişik. Allah həmin fürsəti bu gün qismət etmişdir.[1]

Hamı bir nəfər kimi şəhadətə tələsirdi. Həmzə dedi: «And olsun Allaha, bu qılıncımla Mədinə kənarında onlarla çarpışanadək dilimə bir şey vurmaya-cağam».[2]

## ÜHÜD MEYDANINDA

Həmin ilin ramazan ayı, oruc tutmuş müsəlmanlar üçün çox əlamətdar idi. Onlar iman, Allaha və Onun rəsuluna eşqin nümayişi günlərini yaşayırdılar.

İntizar gecəsi ötüşdü. Səhərdən savaş və qan qoxusu gəlirdi. Allah aşiqlərinin başı üzərində şəhadət göyərçini qanad çalırdı. Onlardan biri də Həmzə idi. Küfr leşkəri İslam qoşunu qarşısında, Mədinənin şimalında Ühüd dağının ətəyində cərgələnirdi. Müşrüklər Bədr döyüşündə öldürülən adamlarının inti-qamını almaq həvəsindəydilər. Müsəlman-lar da Peyğəmbərin (s) başçılığı altında rəşadət göstərmək əzmindəydilər.

[1] Məğazi 1-ci cild, səh. 210.

[2] həmin mənbə, səh. 211.

Hər iki qoşun öz mövqeyində möhkəmlənirdi. Həzrət Peyğəmbər (s) oxatanların bir hissəsini Məşrif təpəsində yerləş-dirmişdi ki, düşmən İslam ordusuna arxadan həmlə edə bilməsin.

Əvvəlcə təkbətək döyüş başladı. Əli (ə) doqquz kafirlə döyüşdü və onların həyatına son qoydu. Həmzə isə savaş fürsəti gözləyirdi. Qeyd olundu ki, o, qılıncını düşmən qanı ilə sirab edənədək dilinə bir şey vurmayacağını əhd etmişdi. Həmzə hələ də orucunu açmamışdı.

Ümumi həmlə başlayanda İslam döyüşçüləri düşmən leşkərinin üzərinə hücuma keçdilər. Həmzə qəhrəmancasına düşmən qoşununun bağrını yarmaqdaydı. O bu döyüşdə iki qılıncla vuruşur və fəryad edirdi ki, mən Allahın şiriyəm.[1] Düşmən qoşunundan bir çoxlarını öldürdükdən sonra İslam qərargahına qayıtdı. Bir qədər sonra ikinci dəfə hücuma keçdi. Həmzə bu qanlı səhnənin qəhrəmanı idi. O, meydana şücaətlə girir, müşrikləri pərən-pərən salırdı. Kimsə bu ağır zərbələrə tab gətirmək gücündə deyildi.[2]

---

[1] «Əyanuş-şiə», 6-cı cild, səh. 245.

[2] «Biharul-ənvar», 20-ci cild, səh. 55.

O kimini öldürür, kimini əsir götürürdü. Həmzə qoşunun ənginliyinə daxil olmaqla, canını təhlükəyə atırdı. Yoldaşları onu ehtiyatlı olmağa çağıraraq deyirdilər: «Cavan və güclü olduğun vaxt bir bu qədər təhlükəyə atılmazdın. Nə səbəbdən bu yaşda bu qədər qorxusuzsan? Ey Həmzə, qılınc qoca-cavan, güclü-zəif tanımır. Düşmənə bu qədər yaxınlaşma». Amma Həmzənin batinindən kimsənin xəbəri yoxdu. O, eşitdiyi nəsihətlər müqabilində belə dedi: «Cavanlıqda hadisələrdən və təhlükələr-dən çox ehtiyat edirdim. Çünki bu dünyadan getməyim, ölümü yoxluq kimi başa düşürdüm. Əlbəttə ki, hamı ölümdən çəkinir. Amma indi Məhəmmədin (s) nuru bərəkətindən ölümü yoxluq bilmirəm. And olsun Allaha, o məni ayıltdı, dünyaya gözlərimi açdı. Ölümü yoxluq bilmə-diyimdən qorxusuz döyüşürəm. Ölümü əbədi həyata qapı bilənlər bu qapıdan Allahın behiştinə daxil olmağa tələsirlər.

## Şəhadət yolunda nə ayaq, nə baş?

***Zərrəcə qəlbimi qorxutmur savaş***
***Əldə qanlı qılınc, könüldə sevinc,***
***Can təndən qopmasa, çətin qala dinc.***
***Rahatlıq eşqiylə döyünür ürək,***

***Dünya bir körpüdür keçilsin gərək.***

İslam qoşununun rəşadəti, xüsusi ilə Həmzə və Əli (ə) kimi insanların qəhrəmanlığı müsəlmanları qələbə ilə müjdələdi və düşmən məğlubiyyətin acısını daddı. Müsəlmanların aramsız hücumları qarşısında qaçmaqdan savayı yol qalmadı. Amma ehtiyat qüvvələrin və təpədəki oxatanların öz mövqeyini tərk etməsi nəticəsində İslam qoşununa arxadan hücum baş tutdu. Müsəlmanların bir hissəsi şəhid oldu, bir hissəsi qaçdı. Əli (ə) və Həmzə əvvəlki şücaətlə vuruşurdular. Həmzə yenə də düşmən leşkərinin bağrını yarıb qılınc çalırdı. O, Ühüd döyüşündə şəhadətə yetməzdən qabaq otuz bir müşriki qılıncdan keçirdi.[1] Əsir düşmüş kafir-lərdən biri müsəlmanlardan soruşdu: «Meydandakı yaxasına dəvəquşu lələyi taxmış kişi kim idi?» Onun Həmzə olduğunu bildirdilər. Əsir dedi: «Bizi bu hala salan o oldu».[2]

Həmzə savaş meydanında tanınmaq üçün yaxasına əlamət taxardı. Bəzi döyüşçülər başlarına lələk taxmaqla, alınlarına xüsusi

---

[1] «Əsədul-ğabə», 2-ci cild, səh. 48.

[2] Həmin mənbə.

parça bağlamaqla fədakar döyüşə-cəklərini bildirirdilər.

## SEYYİDÜŞ-ŞÜHƏDANIN ŞƏHADƏTİ

Həmzə ardı-arası kəsilməz həmlələrlə döyüşü davam etdirirdi. Hər ötən an onun Allahla görüş şövqünü artırırdı. O aramsız hücumlar edir, düşmənlərin başını bədənindən ayırır, onları pərən-pərən salırdı.

Əbu-Süfyanın Bədr döyüşündə atasını, qardaşını, oğlunu itirmiş arvadı Hind bu arada intiqam üçün münasib fürsət gördü. O öz qulamı Vəhşini çağırıb ona vəd etdi ki, əgər Həmzəni öldürə bilsə, azad ediləcək. Vəhşi meydanda hərlənib, Həmzəni öldürmək üçün münasib məqam axtarırdı. O, Həmzə ilə üzbəüz gəlməyə cürət etmədiyindən qəfil hücum üçün pusqu seçirdi. Vəhşi qorxusuz döyüşən Həmzənin haqqında etiraf edərək demişdi: «Onun qılıncı kimə çatırdısa, həyatına son qoyurdu».[1]

Vəhşi bir ağacın dalında pusquda dayandı. Həssas bir məqamda Həmzə yerə yıxıldı və zirehi kənara düşdü. Onun bədəninin bir hissəsini zirehsiz görən Vəhşi fürsəti fövtə vermədi. Pusqudan çıxıb nizəni Həmzəyə

---

[1] İbn Əsir, Kamil, 1-ci cild, səh. 553.

tuşladı.[1] Bəli, Hindin kin silahı küfür pusqusundan Vəhşinin əli ilə atıldı və İslamın sadiq dostunun cisminə sancıldı. Həmzə Vəhşiyə doğru hücum etmək istəsə də, yarası ona imkan vermədi və fədakar mücahid yerə yıxıldı. O öz məhbubu ilə görüş şövqünün işığında dünyaya vida dedi və ruhu tən qəfəsindən pərvaz etdi. 59 yaşı tamam olmuş Seyyidüş-şühəda Həmzə əbədiyyətə qovuşdu.

Həmzənin öldüyünə əmin olan Vəhşi onun cəsədinə yaxınlaşıb zireh və silahını götürdü. Sonra sinəsini yarıb, ciyərini çıxardı. Kin və qəzəb alovunda qovrulan Hind Həmzənin ciyərini çeynəməklə özünü sakitləşdirdi. Ona bu hərəkəti ilə bağlı «ciyəryeyən» ləqəbi də verilmişdir. Amma bu iş onun qəzəbini soyutmadı. Vəhşi ilə birlikdə meydana gəlib, Həmzənin cəsədinə yaxınlaşdı. Amansız qadın şəhidin burnunu və qulaqlarını kəsdi. Bu görünməmiş cinayət Hinddən yadigar qaldı.[2]

Nəhayət, Ühüd savaşı başa çatdı. Müsəlmanlar uğrunda döyüşüb, şəhid verdikləri namaza durdular. Peyğəmbər (s) ilk öncə vəfalı əmisi haqqında soruşdu. Həmzənin şəhid olduğunu bildirdilər. Həzrət onu görmək

---

[1] «Üsdul-ğabə», 2-ci cild, səh. 47.

[2] Məğazi 1-ci cild, səh. 286.

istədi. Səhabələrdən biri onun yerini bildiyini dedi. Cənazəni axtarıb tapsalar da, Həmzənin vəziyyətini Peyğəmbərə deməkdən çəkindilər. Gedənlərin qayıtmadığını görən Peyğəmbər Əlini (ə) onların ardınca göndərdi. Amma Əli (ə) də cəsədin vəziyyətini gördükdən sonra həzrətin (s) yanına qayıda bilmədi. Həzrət (s) xəbər çıxmadığını görüb, özü Həmzənin cəsədini axtarmağa başladı. Nəhayət, cənazəni tapdı. Onun tikə-tikə parçalandığını görüb ağladı və dünya dolu kədərlə buyurdu: «Məni bu qədər qəzəbləndirən səhnə ilə üzləşmə-mişdim».[1] Sonra üzünü şəhidin peykərinə tutub buyurdu: «Ey Həmzə! Ey Allah Peyğəmbərinin (s) əmisi! Ey Allahın və Onun rəsulunun şiri! İşin yaxşı idi, çətinlikləri aradan qaldırdı. Sən Allah rəsulunu himayə etdin, onun müdafiəsinə qalxdın.[2] Bu yolda canını fəda etdin. İndi behiştdə hurilərlə, Allahın rəhməti civarındasan. Artıq Allahın razılığını qazanmısan və əbədi səadətə çatmısan.»

Gördüyü səhnədən qəzəbi alovlanmış Peyğəmbər (s) əhd etdi ki, əgər qüreyşi ələ keçirsə, onların da öldürülənləri ilə belə rəftar

---

[1] Həmin mənbə 1-ci cild, səh. 289.

[2] «Əyanuş-şiə», 6-cı cild, səh. 246.

edəcək və Həmzəyə görə onların yetmişini bu kökə salacaq. Amma bu vaxt Allah-təaladan belə bir ayə nazil oldu: **«İntiqam almaq məqsədi ilə cəza verəsi olsanız, həmin şəxsi özünüz cəzalandırıldığınız şəkildə cəzalandırın. Əgər səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir»[1].** Ayə nazil olduğundan sonra həzrət (s) buyurdu: «Səbr edəcəyəm».[2]

## SEYYİDÜŞ-ŞÜHƏDA HƏMZƏ İLƏ VİDA

Həzrət Peyğəmbərin (s) Həmzənin qanlı cəsədi ilə görüş səhnəsi olduqca üzücü idi. Peyğəmbər (s) əbasını cənazənin üstünə çəkdi. Amma əba Həmzənin qamətinə gödəklik etdi və onun ayaqları göründü. Həzrət (s) açıq qalmış hissəsini səhranın otları ilə örtdü.[3]

Həmin vaxt uzaqdan Həmzənin bacısı Səfiyyə göründü. Peyğəmbər (s) Səfiyyənin oğlu Zübeyrə buyurdu: «Tələs və qoyma anan Həmzəni bu vəziyyətdə görsün». Zübeyr anasını yarıyolda saxlamağa çalışdı və ona dedi ki, Peyğəmbər (s) sənin meydana gəlməyini istəmir. Səfiyyə dedi: «Oğul,

---

[1] «Nəhl» surəsi, ayə 126.

[2] «Tənqihul-məqal», 1-ci cild, səh. 375.

[3] «Biharul-ənvar», 20-ci cild, səh. 63.

eşitdim ki, qardaşım Həmzəni öldürmüş, onun burun-qulağını kəsmiş, sinəsini yarmışlar. Düşünürəm ki, Allah yolunda belə bir müsibətə dözmək çətin olmaz. Ümid edirəm ki, Allah mənə səbr verə». Nəhayət, Peyğəmbər (s) Səfiyyəyə icazə verdi ki, qardaşının cənazəsinə yaxınlaşsın. Səfiyyə cənazəni görüb, gözlərindən qanlı yaşlar axıtdı. Həzrət (s) də dərdli-dərdli ağladı. Sonra Həmzə üçün bağışlanmaq diləyi buyurdu: «Ey Həmzə! Heç vaxt bundan ağır müsibətim olmayacaq. Kimsənin müsibət ağrısı sənin müsibətin kimi deyil».[1] Sonra həzrət (s) üzünü Səfiyyəyə tutub buyurdu: «Şad ol! Cəbrayıl mənə xəbər verdi ki, Həmzənin yeddi göydə «Əsədullah və Əsədul-rəsulihi» deyə çağırdılar».[2]

Seyyidüş-şühəda Həmzənin cənazəsi ilə son vidalaşma oldu. Qərara gəldilər ki, şəhidləri döyüş yerində, Ühüd dağının ətəyində torpağa tapşırsınlar. Həzrət Peyğəmbər (s) İslamın rəşadətli sərkər-dəsinin zəhmət və fədakarlıqlarına təşəkkür olaraq, əvvəlcə onun cənazəsi üçün namaz qıldı. Digər şəhidlərə namaz qılması üçün onların cənazəsini bir-bir

---

[1] «Əyanuş-şiə», 6-cı cild, səh. 246.

[2] Məğazi 1-ci cild, səh. 290.

Həmzənin cənazəsi yanına gətirdilər.[1] Beləcə, Həmzənin cənazəsi üçün şəhid-lərin sayı qədər namaz qılınmış oldu. Bu, İslam döyüşçüsü üçün böyük bir iftixar idi.

Növbə şəhidlərin dəfninə çatdı. Peyğəmbər (s) Həmzənin para-para olmuş sinəsini həmin qanlı libaslarda torpağa tapşırdı. Dəfndən qabaq cənazəni öz ridası ilə bükdü.[2] Peyğəmbərin (s) tövsiyəsi ilə aralarında dostluq olan şəhidləri bir qəbirdə dəfn etdilər. Həzrət Həmzə öz bacısı oğlu Abdullah ibn Cəhş ilə bir qəbirdə torpağa tapşırıl-dı.[3]

## MƏDİNƏ YAS İÇİNDƏ

Ühüd döyüşü başa çatdıqdan, iman yolunda yetmiş şəhid qurban verdikdən sonra Peyğəmbər (s) və mücahid müsəlman-lar Mədinəyə qayıtdılar. Mədinə yas içində idi. Peyğəmbər (s) Mədinənin küçələrindən keçərkən evlərdən ağlaşma səsi gəlirdi. Kimi oğlunun, kimi ərinin, kimi də ata-qardaşının şəhid olduğu üçün ağlayırdı. O vaxtlar əldən getmiş əziz insana görə növhə deyib ağlamaq adət idi. Ağlaşma səsi həzrətin (s) qəlbini

---

[1] «Əyanuş-şiə», 6-cı cild, səh. 246.

[2] «Biharul-ənvar», 22-ci cild, səh. 281.

[3] Məğazi 1-ci cild, səh. 291.

yandırıb-yaxırdı. Ühüd şəhidlərinin dağı çox ağır oldu. Amma həzrəti (s) başqa bir məsələ də qəmləndirirdi. Belə ki, Həmzə üçün ağlayacaq bir kəs yox idi. Həmzənin bu qəribliyi Peyğəmbəri daha da kövrəldirdi. Ona ağlayan olmadığından Peyğəmbər üzülürdü.[1] Peyğəmbərin (s) üzüntüsü ənsarı da qəmləndirdi. Onlar öz ailələrini Həmzənin evinə göndərdilər ki, bu əzəmətli insan üçün əzadarlıq keçirilsin.[2] Bu iş ərəblər arasında bir qaydaya çevrildi. Kimə müsibət üz verdisə, əvvəlcə Həmzəyə sonra öz itkisinə ağlayırdı.[3]

## ŞƏHİDİN MƏZARI ÜSTƏ

Ühüd döyüşündə Həmzə və digər mücahidlərin şəhadətindən sonra cənazələr Ühüd dağının ətəyində, qanlı libaslarında dəfn olundular. Bəziləri öz adamlarının cənazələrini Mədinəyə aparmaq istəsələr də, həzrət (s) buna icazə verməyib buyurdu: «Harada şəhid olublarsa, orada da dəfn edin».[4]

---

1 «Üsdül-ğabə», 2-ci cild, səh. 48.

2 «Tarixe-Təbəri», 2-ci cild, səh. 210.

3 «Əyanuş-şiə», 6-cı cild, səh. 246.

4 «Üsdul-ğabə», 2-ci cild, səh. 49.

Ühüd şəhidlərinin dəfn olunduğu yer möminlərin ziyarətgahı və ilham mənbəyi oldu. Həzrətin (s) göstərişi ilə xalq öz şəhidlərinin, xüsusi ilə Həmzənin ziyarətinə gedirdi. Həzrət (s) özü də Ühüd şəhidlərini ziyarət edir, onlara belə salam verirdi: «Salam olsun sizə, göstərdiyiniz səbr və müqavimətə görə! Axirət evi necə də yaxşı yerdir!»

İslamın əzəmətli xanımı Fatimeyi-Zəhra (s) da iki-üç gündən bir Həmzənin qəbrini ziyarət edərdi.[1] Xanım Zəhra (s) onun qəbrini təmir edər, səliqəyə salardı.[2] O, Həmzənin məzarı üstə ağlayardı.[3]

Şəhidlərin qanı ilə peyman bağlamaq istəyənlər üçün Həmzənin məzarı bir ocaq, and yeri idi. Onlar bu məzarı ziyarət etməklə şəhadət yoluna bağlılıqlarını izhar edərdilər. Belə bir yanaşma Peyğəmbər (s) tərəfindən də tövsiyyə olun-muşdu. Həzrət (s) buyurmuşdu: «Məni ziyarət edib əmim Həmzəni ziyarət etməyən şəxs mənə cəfa qılmışdır».

Mədinə kənarında Həmzə və sair şəhidlərin ziyarəti Allah yolunda xalisanə fədakarlıqların, böyük qəhrəmanlıq

---

[1] Məğazi 1-ci cild, səh. 313.

[2] «Əyanuş-şiə», 6-cı cild, səh. 246.

[3] «Səfinətul-bihar», 1-ci cild, səh. 337.

dastanlarının xatırlan-masıdır. Bu məzarların ziyarət olunması ilə həqiqətə eşq, Allah yolunda cihad həvəsi ziyarətçilərin qəlbində yer tapır. Şəhid türbətində, onun qanlı qoxusunda belə bir misilsiz təsir vardır.

Həzrət Zəhra (s) Həmzənin qəbrinin türbətindən təsbeh düzəltmişdi. O, bu təsbehlə zikr oxuyardı. Xalq da xanımın bu işinə maraq göstərərdi. Amma Hüseyn ibn Əli (ə) şəhadətə yetişdikdən sonra onun türbətinin daha fəzilətli olmasını əsas götürərək, məhz bu türbətdən təsbehlər hazırlanmağa başlandı.[1] Həzrət Fatimə-nin (s) bu işi ibrətamiz idi. Xanım hələ türbətdən təsbeh düzəltməzdən qabaq yun sapa çoxsaylı düyünlər vuraraq, düyünləri saya-saya Allahı zikr edərdi. Həmzə Ühüd döyüşündə şəhid olduqdan sonra isə Fatimə (s) onun türbətindən təsbeh düzəlt-mək qərarına gəldi.[2]

Bəli, şəhadət torpağa da müqəddəslik verir, iman və şücaət türbətdən güc alır.

***Torpaq şəhadətdən aldı ətrini,***
***Qara daş dodaqda tapdı yerini.***

---

[1] «Biharul-ənvar», 98-ci cild, səh. 133.

[2] Həmin mənbə, 82-ci cild, səh. 333.

İmam Rahil (r) buyurur: «Şəhidlərin həmin pak türbətidir ki, qiyamətədək aşiqlərin və ariflərin ziyarətgahı, azadələrin şəfa ocağı olacaq».[1]

Əgər Ühüd şəhidlərinin ziyarəti nəsibimiz olsa, Seyyidüş-şühəda Həmzə və digər şəhidlərin məzarı başında dayanaq, onlara salam verək; necə ki, həzrət Peyğəmbər (s), həzrət Zəhra (s) və onların pak ailəsi bu müqəddəs türbətə hörmət göstərmişlər.

Bizə öyrətmişlər ki, Həmzə və digər Ühüd şəhidlərinin ziyarəti zamanı belə deyək:[2]

«Salam olsun sənə, ey Peyğəmbərin (s) əmisi! Ey şəhidlərin üstünü!

Salam olsun sənə, ey Allahın şiri, Allah rəsulunun şiri!

Şəhadət verirəm ki, Allah yolunda cihad etdin və öz canından keçdin. Səni ziyarət etməklə Allaha və Onun rəsuluna yaxınlaşıram. Sənin şəfaətinə qəlb bağlamışam. Öz xilasımı, qurtuluşumu axtarıram.

Uzaq yoldan gəlmişəm. Bu ümidlə ki, cəhənnəm odundan qurtulum, günahlarım bağışlanmış olsun.

---

[1] «Səhifeye-nur», 20-ci cild, səh. 239.

[2] «Məfatihul-cinan»

Ey Peyğəmbərin (s) vəfalı dostu! Mən dərdimi dərk etmək üçün sizdən üstün mərhəmət və səxavətə malik ailə tapa bilmədim.

Ey zəiflərin yardımçısı! Fəqir və ehtiyaclı olduğum gündə mənim şəfaət-çim ol. Sənin ziyarətinə qəmgin, üzüntülü bir qəlblə gəlmişəm. Məzarının kənarında göz yaşları axıdıram. Sən həmin şəxslərdənsən ki, Allah-təala onlarla bağlılığı təşviq etmiş, onlarla dostluğa yönəltmişdir.

Siz elə bir ailəsiniz ki, sizi sevənlər bədbəxt olmaz. Sizin dərgahınıza üz tutanlar məhrum qalmaz. Könlündə sizin eşqinizə yer verənlər ziyan görməz. Düşmənlərinizsə heç vaxt xoşbəxt olmayacaq».

Sonra iki rəkət namaz qılıb Allahdan ehtiyaclarımızı istəyək və digər Ühüd şəhidlərinə xitabən deyək:

«Salam olsun Allahın rəsulu Məhəmməd ibn Abdullaha, salam olsun onun pak ailəsinə, salam olsun sizə, ey mömin şəhidlər, ey iman və tövhid ailəsi, ey Allah dininin və Allah rəsulunun dost-ları! Calam olsun sizə, Allah yolunda göstərdiyiniz yardımlara görə! Necə gözəl aqibətə çatdınız!

Şəhadət verirəm ki, Allah sizi öz dini və peyğəmbəri üçün seçdi. Allah yolunda ən gözəl şəkildə cihad etdiniz, Allahın dinini, Peyğəmbərin (s) canını qorudunuz və onun yolunda aşiqcəsinə can verdiniz.

Şəhadət verirəm ki, siz həzrət Peyğəmbərin (s) yolu və ayinləri üstündə öldürüldünüz. Allah öz Peyğəmbəri, İslam və müsəlmanlar tərəfindən sizə ən üstün mükafat versin. Siz Allahın razılıq və kəramətinə nail olduğunuz, peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə yoldaş olduğunuz üçün Allah behiştdə sizin çöhrənizi bizə tanıtdırsın!

Şəhadət verirəm ki, siz Allahın firqəsindənsiniz. Sizinlə döyüşənlər Allahla döyüşmüşlər. Siz Allah dərga-hına yaxın olanlardan, doğru yolu tapıb, əbədi diri qalanlardansınız. Allah yanında ruziyə çatmısınız.

Sizi öldürənlərə Allahın, mələklərin, bütün insanların lənəti olsun. Ey tövhid əhli! Mən sizin yanınıza bir ziyarətçi kimi gəlmişəm, sizin haqqınızla tanışam, sizi ziyarət etməklə Allaha yaxınlıq axtarıram.

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə! Sizi öldürənlər isə Allahın lənətinə və qəzəbinə gəlsinlər!

Pərvərdigara! Məni bu şəhidlərin ziyarətindən faydalandır. Onların yolunda mənim də qədəmlərimi möhkəmləndir. Məni o əqidə ilə dünyadan apar ki, bu şəhidləri həmin əqidə ilə aparmısan. Məni behiştinin uca mənzillərindən olanlarla yoldaş et.

Şəhadət verirəm ki, siz bizdən qabağa düşmüsünüz, yeyin olmusunuz və biz də sizə qatılasıyıq».

Bəli, Allahın dini və İslam Peyğəmbərinin (s) müdafiəsi yolunda həyatlarının son anına və son damla qanlarına qədər xalislik və fədakarlıqla döyüşən insanlarla peymanımız belədir. Onlar bizim üçün idealdır - iman, əməl, əqidə və cihad idealı!

Onların məzarları eşq məhəlli, adları ilham mənbəyi, xatirələri hərəkət-vericidir. Ziyarətləri fədakarlıq, haq-şünaslıq, şəhid qanı önündə vəzifənin icrası əlamətidir!

Bütün yer üzü Ühüd meydanıdır! Haqq və batil qoşunlarının savaş səhnəsi!

Kim bu yolda canından keçsə, Seyyidüş-şühəda Həmzənin aydın xəttini izləyir. Bu yol isə Allah yoludur!

## Mündəricat

MÜQƏDDİMƏ........................................3
HƏMZƏNİN FƏZİLƏTLƏRİ.................5
HƏMZƏ İSLAMDAN QABAQ..............9
HƏMZƏ İSLAMI QƏBUL ETDİYİNİ BİLDİRİR ............................................. 13
HİCRƏT ASTANASINDA .................. 19
MƏDİNƏDƏ ........................................ 21
BƏDR DÖYÜŞÜ................................... 24
ŞƏHADƏT ŞÖVQÜ............................. 28
ÜHÜD MEYDANINDA ...................... 32
Şəhadət yolunda nə ayaq, nə baş?......... 34

SEYYİDÜŞ-ŞÜHƏDANIN ŞƏHADƏTİ
........................................................... 36
SEYYİDÜŞ-ŞÜHƏDA HƏMZƏ İLƏ
VİDA..................................................... 39
MƏDİNƏ YAS İÇİNDƏ ...................... 41
ŞƏHİDİN MƏZARI ÜSTƏ.................. 42